Uşaqlar üçün Müqəddəs Kitab

təqdim edir

# İtmiş Oğul



Müəllif: Edward Hughes

İllüstrasiya edən: Lazarus

Uyğunlaşdıran: Ruth Klassen; Sarah S.

Tərcümə edən: Günay Əsədova

Təqdim edən: Bible for Children
www.M1914.org

©2014 Bible for Children, Inc.
Lisenziya: Bu kitabı satmamaq şərti ilə kitabın surətini çıxarda bilmək hüququna maliksiniz.



İsa insanlara Allahın
günahları bağışlaması
haqqında danışmağı sevirdi.
Lakin Yəhudi rəhbərləri
Onun günahkarlarla
olan münasibətinə görə
gileylənirdilər. Beləliklə, İsa
günahkarların öz günahlarına
görə peşman olarkən,
Allahın bundan məmnun
olması haqda üç
hekayə danışdı.

Birnci hekayə yüz
qoyunu olan bir
adam haqqında idi.
Qoyunlardan
biri itdi.

Çoban həmin an doxsan
doqquz qoyunu
buraxdı və
itmiş qoyunu
axtarmağa
getdi.





Çoban qoyunu tapana qədər axtardı. Sonra onu çiyinlərinə qoydu və sevinclə evə apardı. O, dostlarına dedi: “Mənimlə sevinin, çünki mən itmiş qoyunumu tapdım!”

İsa izah etdi ki, bir günahkar tövbə edəndə göylərdə böyük sevinc olur. Tövbə etmək, günahlarına görə peşman olmaq - ondan əl çəkmək qədər peşman olmaq deməkdir!





İsanın növbəti hekayəsi bəlkə də əlində on gümüş qəpiyi olan qadın haqqında idi.  Dəhşətli bir şey baş verdi.  O, qəpiklərindən birini itirdi.

Süpürdü! Süpürdü! Süpürdü!
Qadın hər yerə baxdı.



Nəhayət, o, itmiş qəpiyini tapdı. O, çox xoşbəxt idi. Onun nə etdiyini tapa bilərsən? Bəli, o, bütün dostlarına dedi!





İsa yenidən dedi:
“Bir günahkar tövbə edərkən Allahın mələklərinin hüzurunda böyük sevinc olur”.

İsanın danışdığı üçüncü hekayə ən kədərli hekayə idi.  Bu, öz atasının evini təkr edən bir oğlan haqqında idi.



Oğlan uzaq ölkədə bütün pullarını ağılsızlıqla xərclədi.  İndi o nə edə bilərdi?  İşlər daha da pisləşdi, aclıq gəldi.  Oğlan acından ölə bilərdi.



Ac oğlan ümidsiz halda donuzları yedizdirmək işini tapdı. Ancaq heç kim ona yemək vermirdi. O, sevclə donuzların yeməyini yeyə bilərdi. Bəlkə də yeyirdi! Nəhayət, oğlanın ağlı başına gəldi. O fikirləşdi: “Evdə hətta xidmətçilər də yaxşı yeyirlər”.





“Evə gedəcəyəm və atama günahlarıma görə peşman olduğumu deyəcəyəm.  Onun oğlu olmağa artıq layiq deyiləm.  Ümid edirəm ki, o, məni bir xidmətçi kimi işə götürər”.

Oğlan hələ evdən çox uzaqda, yolda ikən, atası onun gəldiyini gördü. Atası sevinc içində geri dönən oğlunun yanına qaçdı. O, oğlunu öpdü və bağrına basdı.





"Ata, mən günah işlətmişəm. Mən sənin oğlun olmağa layiq deyiləm". Oğlan atasından onu xidmətçi kimi işə götürməsini xahiş etmək istəyirdi. Lakin atası onun sözünü kəsdi. "Ən yaxşı paltarı, çarığı və üzüyü mənim oğlum üçün gətirin. Böyük bir ziyafət də hazırlayın".



Orada gözəl bir şənlik var idi, çünki itmiş oğul tapılmışdı. İsa bu hekayəni ona görə danışdı ki, bu hekayə Allahın məhəbbətinin tövbə edən və Ona tərəf gələn günahkarı necə qəbul etdiyini göstərir.

# İtmiş Oğul

Allahın Sözü, Müqəddəs Kitabdan
olan bir hekayədir

Luka 15

“Kəlamının açıqlanması nur saçır”.
Məzmur 119:130

Son

Bu Müqəddəs Kitab hekayəsi bizə, bizi yaradan və Onu tanımağımızı istəyən Allahımızdan bəhs edir.

Allah, Onun günah adlandırdığı pis şeyləri etdiyimizi bilir. Günahın cəzası ölümdür, lakin Allah səni o qədər çox sevir ki, O, Öz yeganə Oğlunu, İsanı Çarmıxda ölmək və sənin günahlarına görə cəzalandırılmaq üçün göndərdi. Sonra İsa dirildi və Göylərə getdi! Əgər sən İsaya inansan və Ondan günahlarını bağışlamasını diləsən, O, bunu edəcək!; O indi gələcək və daxilində yaşayacaq və sən əbədiyyən Onunla birlikdə yaşayacaqsan.

Əgər sən bunların həqiqət olduğuna inanırsansa, onda bunu Allaha de: Əziz İsa, mən inanıram ki, Sən Allahsan və mənim günahlarıma görə ölmək üçün insan oldun və indi Sən yenidən yaşayırsan. Xahiş edirəm, həyatıma gəl və mənim günahlarımı bağışla ki, mən indi yeni həyata malik ola və bir gün Səninlə birlikdə əbədiyyən yaşaya bilim. Sənə itaət etməkdə və Sənin övladın kimi yaşamaqda mənə kömək et. Amin.

**Müqəddəs Kitabı oxu və hər gün Allahla danış! Yəhya 3:16**